# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 8-ci səhifədə).

Rayonda mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün il ərzində fərdi təsərrüfatlarda 2943 baş qaramalda süni mayalama aparılmış və mayalanmış heyvanlardan 2010 baş yüksək genetik potensiala malik birinci nəsil buzovlar alınmışdır. Oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış buzovlar üçün sahibkarlara subsidiya verilməsinə başlanılmışdır.

Rayon balıqyetişdirmə zavodu tərəfindən 2016-cı ildə təbii su hövzələrinə, Xəzər dənizinə və Kür çayına 63730 ədəd kür qızılbalığı buraxılmışdır. Hazırda zavodda nəsli kəsilməkdə olan qızılbalıqlardan kürü alınaraq süfrələrin yetişdirilməsi işləri aparılır.

Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun meyvə istehsalçıları da fəal iştirak edirlər. 2016-cı ildə həmin yarmarkalarda 30,5 ton tumlu, 31 ton qərzəkli meyvələr və 3,5 ton müxtəlif tərəvəz məhsulu satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam etdirilir.

Respublika iqtisadiyyatında kənd təsərrüfatına dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sektoru və bu sektorda görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ilin ötən dövr ərzində vətəndaşların müraciətlərinə baxılması işi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir. Cari ildə rayon icra hakimiyyətinə ümumilikdə 979 ərizə daxil olmuşdur. O cümlədən 373 ərizə Azərbaycan Respublikası Prezidenti Administrasiyasından, 32 ərizə Milli Məclisdən, 13 ərizə Nazirlər Kabinetindən, 96 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 459 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur. Ərizələrin məzmunu əsasən vətəndaşların mənzillə təmin olunması, fərdi yaşayış evinin təmir edilməsi, onların müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının və birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir.

2016-cı ilin ötən dövründə vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüş, il ərzində 1037 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.



*Aqrar sektor iqtisadiyyatımızın prioritet sahəsidir.*

Eləcə də ötən dövr ərzində rayon icra hakimiyyəti başçısının 46 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 4931 nəfər iştirak etmişdir. Onlardan 351 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

Təkliflərin və müraciətlərin 322-si həll edilmiş, 17-si ilə bağlı müvafiq izahat işi aparılmış, 12 məsələnin həlli isə respublikanın digər aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin təkliflərlə əlaqədar onlara müraciətlər ünvanlanmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, subartezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən 26 dekabr 2016-cı il tarixdə müşavirə keçirilmiş və müşavirədə səsləndirilmiş bir çox sahələrə aid irad və qeydlərin aidiyyəti üzrə baxılması tapşırılmışdır. Müşavirədə bildirilmişdir ki, dövlət tərəfindən vətəndaşlara verilmiş pay torpaqlarından rayonlarda bəzi hallarda təyinatı üzrə istifadə olunmamış, əkin üçün nəzərdə tutulmuş torpaq sahələrində fərdi yaşayış evləri və başqa tikililər inşa edilmişdir.



Qeyd edilən nöqsanlarla əlaqədar bizim rayonumuzda da yerli icra nümayəndələri tərəfindən vəziyyətə nəzarət gücləndirilməli, bələdiyyələrə öz işini düzgün qurmaq üçün müvafiq yardım göstərilməli, əhali arasında maarifləndirmə işləri aparılmalıdır. İcra nümayəndələrinin bəzi hallarda məsələyə düzgün yanaşmamasından istifadə edərək vətəndaşlar mövcud qanunları pozaraq, ümumi istifadədə olan ərazilərdə, sənaye müəssisələrinin və kommunikasiya şəbəkələrinin sanitariya - mühafizə zonalarında inşaat işləri aparırlar.

Eləcə də müşavirədə təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin fəaliyyətinin təşkilində qüsurların olduğu qeyd edilmişdir. Sadalanan nöqsanlara az da olsa rayonumuzda da təsadüf edilir. Bütün sahələr üzrə yol verilmiş nöqsanlar aşkarlanıb qısa zamanda aradan qaldırılmalıdır.

Rayon maliyyə idarəsi büdcə vəsaitlərinin tam həcmdə öz təyinatı üzrə istifadə olunmasına və xərclənməsinə nəzarəti artırmalıdır.

Eyni zamanda bütün sahələr üzrə korrupsiyaya və rüşvətə qarşı mübarizə tədbirləri daha da gücləndirilməli dövlət orqanlarının fəaliyyətində şəffaflıq təmin olunmalıdır.

İdarə və müəssisələrə işə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. İdarə rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətini diqqət mərkəzində saxlamalıdır. Hər bir dövlət idarəsinin rəhbəri öz kollektivi üçün nümunə olmalıdır.

**Hörmətli tədbir iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab İlham Əliyev 2017-ci ildə də bütün sahələrə ciddi diqqət göstərilməsi, dövlət investisiya proqramı və infrastruktur layihələrinin icra olunması istiqamətində mühüm tapşırıqlar vermişdir.

2017-ci ildə makroiqtisadi sabitliyin təmin edilməsinin, inflyasiyanın birrəqəmli olmasının vacibliyini vurğulayan Prezident cənab İlham Əliyev bank sektorunun sağlamlaşdırılması ilə bağlı bu il də geniş tədbirlərin görüləcəyini demişdir. Dövlətimizin başçısı sənaye parklarının yaradılması, kənd təsərrüfatının, xüsusilə də taxıl, pambıq, çay, barama və şərab istehsalının artırılması, valyuta gətirən meyvə plantasiyalarının salınması, heyvandarlığın inkişafı ilə bağlı tədbirlərin görülməsinin əhəmiyyətindən danışaraq, istehsal olunan məhsullar üçün yeni bazarların tapılmasının vacibliyini vurğulamışdır.

Ölkədə infrastrukturun yaradılması, qazlaşdırılmanın aparılması, kənd yollarının tikintisi, içməli su layihələrinin icrası işlərinin daha da sürətləndirilməsi ilə bağlı tapşırıqlarını verən Prezident cənab İlham Əliyev hərbi potensialın gücləndirilməsinə dair əlavə tədbirlərin görüləcəyini bildirmiş, ekoloji tədbirlərin, ölkəyə turist axınının stimullaşdırılmasının, “ASAN xidmət”in coğrafiyasının və funksiyalarının genişləndirilməsinin diqqət mərkəzində saxlanıldığını bildirmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı il ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2017-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**